# Carçı




2011-ci ildən

№ 72

Noyabr / 2025

NOYABR/ 2025/ № 72

Carçı

"ATƏŞGAH" SIĞORTA QRUPUNUN
RÜBLÜK JURNALI

№ 72
NOYABR / 2025

R Ü B L Ü K   J U R N A L

AtəşgahSığorta

Siz də jurnalımızın müəllifi və ya aktiv üzvü ola bilərsiniz. Özünüzü yeni sahədə sınayın!

Biz yeni fikir və təkliflərə açığıq.

İstək və təkliflərinizi elektron ünvanımıza göndərin:

**pr@ateshgah.com**

Hazırki nüsxədə əməyi keçənlər:

L. Babayeva
Ş. Həsənsoy
T. Cəfərova

# MÜNDƏRİCAT




## Türk Dünyası Sığorta Assambleyasında iştirak etdik!

səh. 11

Sürətə etibar qatan əməkdaşlıq
səh. 03

Bilik günü sevinci
səh. 04

Karyera sərgiləri
səh. 05

Məqsəd uğurun başlanğıcıdır!
səh. 06

"Ateşgahda Söhbətgah" görüşləri davam edir!
səh. 07

Yeni vəzifə təyinatı!
səh. 8

KASKO xəbərləri
səh. 9

Türk Dünyası Sığorta Assambleyasında iştirak etdik!
səh. 11

"Ateşgahlılar" Formula 1 yarışında təhlükəsizliyə dəstək oldular
səh. 12

Əməkdaşlıqdan dostluğa
səh. 13

Xoş anlar və dəyərlər ənənəsi
səh. 14

"Ateşgah" ailəsində peşəkar uğurlar davam edir!
səh. 15

Partnyorlarla möhkəm əməkdaşlıq körpüsü
səh. 16

Sahibsiz heyvanlara dəstək layihəsi
səh. 17

Bir-birimizi tanıyaq
səh. 18

Maraqlı faktlar rubrikası
səh. 21

# Sürətə etibar qatan əməkdaşlıq

***Əziz oxucular,***
"Carçı" korporativ jurnalının yeni sayında hər birinizi salamlayırıq!
Yeniliklərlə və sevindirici xəbərlərlə yenidən qarşınızdayıq.
İlk xoş xəbərimiz tərəfdaşımız "Maserati Baku" ilə bağlıdır. Belə ki, yarış təhlükəsizliyi və idarəetmə məqsədilə istifadə olunan Race Control avtomobili artıq "Ateşgah" Sığorta Şirkəti tərəfindən sığortalanıb.Söhbət Maserati MC20, Maserati Grecale və tam elektriklə işləyən Maserati Grecale Folgore modellərindən gedir.
Belə ki, layihənin həyata keçirilməsi şirkətimizin həm beynəlxalq tədbirlərdə iştirakını, həm də "Maserati Baku" ilə möhkəm tərəfdaşlıq münasibətlərini bir daha nümayiş etdirir.










"Ateşgah" Sığorta Şirkəti eyni azamanda, beynəlxalq əməkdaşlıq sahəsində də fəallığını davam etdirir. Avtosalonlarla iş şöbəsinin müdiri Tural Kələntərli Almaniyanın Münhen şəhərində keçirilən görüşlərdə şirkətimizi təmsil edərək, "Toyota Insurance Services Europe" və "Toyota Caucasus" şirkətlərinin əməkdaşları ilə məhsuldar görüşlər keçirib. O, təcrübə mübadiləsində iştirak etmiş və "Toyota Kasko" layihəsi üzrə gələcək planların müzakirəsində fəallıq göstərmişdir.






# Bilik günü sevinci

Şirkətimizin həyata keçirdiyi korporativ sosial məsuliyyət (KSM) strategiyasına uyğun olaraq, hər il “Bilik günü” ərəfəsində ölkənin ucqar dağ kəndlərində yaşayan aztəminatlı ailələrə yardım və dəstək aksiyası təşkil edilir. Bu təşəbbüs, maddi yardım göstərməkdən əlavə, uşaqların təhsilə olan marağını artırmaq, onların gələcəyə ümidlə baxmalarını təmin etmək və cəmiyyətimizin gələcək nəsillərinə qayğı ilə yanaşmaq məqsədini daşıyır.
Bu ilki “Bilik günü”nə hazırlıq çərçivəsində sentyabrın 7-də növbəti sosial məsuliyyət aksiyasına start verildi. Şirkətimizin səmimi təşəbbüsü ilə təşkil olunan aksiya çərçivəsində bir qrup əməkdaş İsmayıllı rayonunun qədim mədəniyyətə malik Lahıc kəndinə yola düşdü. Marketinq və ictimaiyyətlə əlaqələr şöbəsinin peşəkar təşkilatçılığı ilə həyata keçirilən bu layihə, şirkət tərəfindən ayrılan xüsusi büdcə ilə reallaşdı. Eyni zamanda, Telemarketinq, Əmlak Sığortası və Təkrarsığorta şöbələrinin göstərdiyi mənəvi və maddi dəstək layihənin uğurla gerçəkləşməsində mühüm rol oynadı.
Layihənin əsas məqsədi aztəminatlı ailələrin məktəbyaşlı övladlarını yeni dərs ilinə hazırlamaq və onların təhsilə olan marağını artırmaqdan ibarət idi. Aksiya çərçivəsində uşaqlara məktəb ləvazimatları ilə yanaşı, gündəlik ərzaq məhsulları da təqdim olundu. Beləliklə, onların həm təhsil, həm də gündəlik ehtiyaclarına dəstək göstərildi.












Səfər zamanı əməkdaşlarımız Lahıc qəsəbə tam orta məktəbinin tədris və şərait imkanları ilə yaxından tanış oldular. Həmçinin, məktəbdə təhsil almış şəhidlərin xatirəsi ehtiramla yad edildi.
Kənd icra nümayəndəsinin rəhbərliyi ilə təşkil olunmuş ekskursiya zamanı iştirakçılar Lahıcın zəngin tarixi irsi və sənətkarlıq ənənələri barədə geniş məlumatlar əldə etdilər. Səfərin sonunda isə “Lahıclılar” əməkdaşlarımızı çay süfrəsi ətrafında səmimi görüşə dəvət etdilər.
Gələcəkdə də şirkətimiz sosial məsuliyyət təşəbbüsü ilə birlik və həmrəyliyi gücləndirməyə davam edəcək.

# Karyera sərgiləri

Şirkətimiz insan kapitalının inkişafını strateji prioritet hesab edir və bu istiqamətdə mütəmadi olaraq peşəkar təlimlərə, eləcə də maarifləndirmə tədbirlərinə xüsusi önəm verir. Bu yanaşma təkcə mövcud heyətin bilik və bacarıqlarının artırılması ilə məhdudlaşmır, eyni zamanda gənclərin sığorta sektoruna cəlb olunmasına xidmət edir.
Bu məqsədlə, 19 avqust tarixində şirkətimiz Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən Dövlət Məşğulluq Agentliyi tərəfindən təşkil olunan əmək yarmarkasında iştirak etdi. Tədbirin əsas məqsədi gənclərin əmək bazarına inteqrasiyasını və onların özlərinə uyğun karyera istiqaməti seçməsini dəstəkləmək idi.
Nizami Kino Mərkəzində baş tutan əmək yarmarkasında şirkətimizi Sığorta məsləhətçilərinin hazırlanması şöbəsinin mütəxəssisi Ləman Nəsibzadə təmsil edib. O, iştirakçılara “Atəşgah” Sığorta Şirkətinin fəaliyyəti, mövcud vakansiyalar və işə qəbul prosesi barədə geniş məlumatlar təqdim etmişdir. “Atəşgah” şirkəti olaraq həm daxili insan resurslarının inkişafı, həm də gələcək peşəkarların cəlbi istiqamətində fəaliyyətimizi davam etdirməyə sadiqik.














# Məqsəd uğurun başlanğıcıdır!

Müasir biznes mühitində rəqabətə davamlı olmaq üçün yalnız texnoloji yeniliklər və bazar strategiyaları kifayət etmir. Uğurun təməlində dayanan əsas amil məhz insan kapitalıdır. “Atəşgah” Sığorta olaraq inanırıq ki, hər bir əməkdaşın bilik, bacarıq və liderlik potensialına qoyulan sərmayə uzunmüddətli və davamlı inkişafın ən etibarlı yoludur. Bu strateji yanaşmanın tərkib hissəsi olaraq, əməkdaşların potensialını artırmaq, liderlik keyfiyyətlərini gücləndirmək və komanda idarəetməsində müasir yanaşmaların tətbiqini təşviq etmək məqsədilə müxtəlif inkişaf layihələri və təlim proqramları həyata keçirilir.
Bu istiqamətdə atılan son addımlardan biri rəhbər heyət üçün ICE Academy ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən “Liderin inkişaf proqramı” olmuşdur. Sentyabr ayında start verilmiş bu təlim proqramı rəhbər vəzifələrdə çalışan əməkdaşların strateji idarəetmə, liderlik və qərarvermə sahələrində bilik və bacarıqlarını təkmilləşdirməyə yönəlmişdir. İki mərhələdə və müxtəlif qruplar üzrə təşkil olunan təlimlər iştirakçıların böyük marağına səbəb olmuşdur. Proqramın məqsədi yalnız fərdi bacarıqları artırmaq deyil, eyni zamanda komandadaxili əlaqələri gücləndirmək və innovativ idarəetmə metodlarının tətbiqinə zəmin yaratmaq olmuşdur.









Həmkarlarımızın qazandığı yeni bilik və bacarıqların gündəlik iş fəaliyyətinə, komanda idarəetməsinə və peşəkar inkişaf yollarına mühüm töhfə verəcəyinə inanırıq. Bu təşəbbüslər bir daha göstərir ki, “Atəşgah” olaraq bizim üçün əsas dəyər insan amilidir. Hər bir əməkdaşın inkişafı, liderlik yolunda atdığı addımlar və gələcəyin peşəkarlarının formalaşmasına verdiyimiz dəstək, bizi yalnız bu günün deyil, sabahın da uğurlu şirkətinə çevirir. Biz birlikdə böyüyür, inkişaf edir və gələcəyə daha güclü addımlarla irəliləyirik!







# "Atəşgahda Söhbətgah" görüşləri davam edir!

Əməkdaşların  peşəkar inkişafını dəstəkləyən ənənəvi layihələrdən biri olan "Atəşgahda Söhbətgah" müxtəlif mövzular ətrafında maraqlı, düşündürücü və motivasiyaedici görüşlər ilə davam edir. Layihə çərçivəsində keçirilən tədbirlər əməkdaşların dünyagörüşünün genişlənməsi, biliklərinin artırılması və korporativ birliyin gücləndirilməsi məqsədi daşıyır.
19 sentyabr tarixində keçirilən tədbir Azərbaycanın müasir tarixində dönüş nöqtəsi hesab edilən "Əsrin Müqaviləsi"nə həsr olunmuşdu. Mövzu ətrafında aparılan maraqlı müzakirələr bu mühüm müqavilənin ölkəmizin iqtisadi və geosiyasi inkişafındakı əvəzsiz rolunu bir daha gündəmə gətirdi. Tədbirin moderatoru qismində çıxış edən Partnyor satışların inkişafı departamentinin direktor müavini Lalə Axundova tarixi bilgilərini bölüşərək, "Əsrin Müqaviləsi"nin milli dirçəlişin və beynəlxalq nüfuzun əsas sütunlarından biri olduğunu vurğuladı.








Layihənin növbəti görüşü isə fərqli və ilhamverici bir mövzuya həsr olunmuşdu. Bu dəfəki qonaq Texasda fəaliyyət göstərən "Oriente Lux Limousine" şirkətinin təsisçisi
Toğrul Sideifzadə oldu. O, həyatında qarşılaşdığı çətinliklərdən necə güc aldığını, şəxsi inkişafın biznes uğurundan öncə gəldiyini və insanın məqsədlərinə çatmaq üçün özünü necə proqramlaşdıracağı ilə bağlı təcrübələrini iştirakçılarla bölüşdü. Onun səmimi çıxışı, real həyat nümunələri və praktiki tövsiyələri tədbir iştirakçılarına motivasiya və özünüinkişaf üçün güclü bir stimul oldu.







# Yeni vəzifə təyinatı!

*Əziz oxucular,*

“Ateşgah” Sığorta Şirkəti ASC-də həyata keçirilən struktur dəyişiklikləri çərçivəsində Direktorlar Şurasında yeni təyinat reallaşmışdır. Bu qərar şirkətin idarəetmə potensialının daha da gücləndirilməsinə və davamlı inkişaf strategiyasının effektiv icrasına xidmət edir.



Azər Allahverdi oğlu Əliyev “Ateşgah” Sığorta Şirkəti ASC-nin Direktorlar Şurasının sədri vəzifəsinə təyin olunmuşdur.

Sığorta sahəsində dərin bilik və çoxillik təcrübəyə malik olan Azər Əliyev, “Ateşgah” Sığorta Şirkətinin inkişafında mühüm pay sahibi olan rəhbərlərdən biridir. O, 2008–2010 və 2017–2022-ci illərdə “Ateşgah” Sığorta Şirkətinin İdarə Heyətinin sədri vəzifəsində çalışmış, 2025-ci ilin may ayından etibarən isə Direktorlar Şurasının üzvü kimi fəaliyyətini davam etdirmişdir.

Yeni təyinat münasibətilə Azər Əliyevi səmimi qəlbdən təbrik edir, ona gələcək fəaliyyətində uğurlar, yeni nailiyyətlər və “Ateşgah”ın inkişafında davamlı töhfələr arzulayırıq!

# KASKO *xəbərləri*




"Atəşgah" Sığorta Şirkəti  bu dəfə də müştərilərini sevindirəcək yeni KASKO layihəsinə start verdi!
Şirkətimiz 1 avqust tarixindən, 1 sentyabr 2025-ci il tarixinədək BMW avtomobil sahiblərinə xüsusi olaraq "BMW Ayı" aksiyasını təqdim etdi. Kampaniya çərçivəsində müştərilərə 2015-ci il və daha yeni istehsal ili olan BMW avtomobillərini cəmi 2.2% tariflə KASKO sığortası etdirmək imkanı yaradılmışdı. Aksiyaya göstərilən yüksək maraq nəticəsində kampaniyanın müddəti 15 sentyabr 2025-ci il tarixinədək uzadılmışdır.
Əlavə olaraq, sığorta haqqı 1000 AZN-dən yuxarı olan birdəfəlik ödənişlərdə müştərilərə 50 AZN dəyərində yanacaq kartı da hədiyyə edilmişdir.
Bu, kampaniya "Atəşgah" Sığortanın müştərilərə əlverişli və etibarlı sığorta həlləri təqdim etmək istiqamətindəki ardıcıl uğurlarının davamı oldu.



## KASKO üzrə III rübün nəticələri

Əldə olunan hər bir uğur, göstərilən etimadın və peşəkar yanaşmanın bariz nümunəsidir. Bu dəfə də KASKO məhsulu üzrə əldə olunan nəticələr əməkdaşlarımızın fədakar əməyini və müştəriyönümlü fəaliyyətini sübut etdi. III rüb ərzində fərqlənən əməkdaşları, eləcə də şöbə və departamentlərin göstəricilərini diqqətinizə çatdırmaq istərdik:

1-ci yer

### BMW aksiyasının çempionu



Günel Əmirova
Pərakəndə satışların inkişafı departamenti

### KASKO məhsulunun satışı üzrə çempion



Ruslan Əliyev
Pərakəndə satışların inkişafı departamenti

### III rüb üzrə fiziki şəxslərə KASKO məhsulunun satışında fərqlənmiş əməkdaşlar:



Ruslan Əliyev
Pərakəndə satışların inkişafı departamenti
115 müqavilə



Aytac Abdıyeva
Telemarketinq şöbəsi
55 müqavilə



Fərqanə Qənbərova
Telemarketinq şöbəsi
38 müqavilə



Malvina Bayramoğlu
Pərakəndə
satışların inkişafı departamenti
37 müqavilə



Fidan Hüseynli
Telemarketinq şöbəsi
36 müqavilə

**III rüb üzrə şöbə və departamentlərin iş nəticələrinin ümumi faiz göstəriciləri**

- 01 Pərakəndə satışların inkişafı departamenti – 128%
- 02 Regional satış şöbəsi – 55%
- 03 Mühüm müştərilərlə iş şöbəsi – 87%
- 04 Kiçik və orta biznesin sığortası departamenti – 80%
- 05 Telemarketinq şöbəsi – 90%
- 06 Avtosalonlarla iş şöbəsi - 40%
- 07 Ümumi yerinəyetirmə - 70%

# Türk Dünyası Sığorta Assambleyasında iştirak etdik!

Sentyabr ayının 14-ü  Azərbaycanın mədəniyyət paytaxtı Şuşada Türk Dünyası Sığorta Birliyinin Birinci Assambleyası keçirilmişdir. Tədbir çərçivəsində türk dövlətlərinin sığortaçıları bir araya gələrək mühüm sənəd – “Proklamasiya sənədi”ni imzalayıblar. İmzalanan sənədə əsasən, Türk Dünyası Sığorta Birliyi Türk Dövlətləri Təşkilatının məqsəd və prinsiplərinə uyğun şəkildə yenidən formalaşdırılıb. Yenilənmiş tərkibdə Birliyə 5 təsisçi üzv ölkə ilə yanaşı, Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikasının sığorta assosiasiyaları müşahidəçi qismində daxil oldular.

Yeni mərhələdə Birliyin əsas məqsədi üzv və müşahidəçi ölkələrin sığorta bazarları arasında qarşılıqlı təcrübə, kadr və məlumat mübadiləsini təşkil etmək, əməkdaşlıq imkanlarını genişləndirmək və Türk dünyasında sığorta sektorunun inkişafına töhfə verməkdir.

Tədbirdə Azərbaycanın sığorta sektorunu təmsil edən şəxslər də iştirak etmişlər. Onların sırasında “Atəşgah Həyat” Sığorta Şirkətinin Direktorlar Şurasının sədri Namiq Xəlilov, “Atəşgah” Sığorta Şirkətinin İdarə Heyətinin sədri Elçin Əhmədov, Direktorlar Şurasının sədrinin müşaviri Sənan Xalıqlı və “Atəşgah Həyat” Sığorta Şirkətinin İdarə Heyətinin üzvü, Partnyor Satışlarının İnkişafı Departamentinin direktoru Şəfəq Həsənova yer almışlar.






# "Atəşgahlılar" Formula 1 yarışında təhlükəsizliyə dəstək oldular

2025-ci il Formula 1 Qatar Airways Azərbaycan Qran-Prisi ölkəmiz üçün beynəlxalq imic baxımından xüsusi əhəmiyyət kəsb edən tədbirlərdən biri oldu. Minlərlə tamaşaçının izlədiyi bu dünya miqyaslı yarışın təhlükəsiz və yüksək səviyyədə keçirilməsi üçün yüzlərlə könüllü əməkdaş səfərbər olunmuşdur. Bu komandanın mühüm hissəsini isə marşallar təşkil edirdi.
Yarış zamanı təhlükəsizlik tədbirlərinin həyata keçirilməsində əsas rol oynayan marşallar komandası, müxtəlif funksional sahələr üzrə – trek nəzarəti, bayraq siqnalları, yanğın təhlükəsizliyi və sürətli reaksiya üzrə bölünərək operativ fəaliyyət göstərmişlər.








Bu mötəbər tədbirdə "Atəşgah" Sığorta Şirkətinin əməkdaşları da marşal qismində fəal iştirak etdilər. Onlar yarışdan əvvəl keçirilən hazırlıq mərhələsində təyin olunmuş postlarla ətraflı tanış olub, xüsusi marşrut üzrə hərəkət edərək lazımi bilgilərlə təmin olunmuşlar.
İştirak etdikləri təlim məşqləri sayəsində yarış günü qarşıya çıxa biləcək risklərə hazır şəkildə fəaliyyət göstəriblər.
Əməkdaşlarımızın bu nüfuzlu yarışda iştirak etməsi təkcə şirkətimiz üçün deyil, həm də ölkəmizdə keçirilən beynəlxalq tədbirlərə korporativ dəstək baxımından qürurverici haldır. Bu cür təşəbbüslər "Atəşgah" komandasının sosial məsuliyyət prinsipinə verdiyi önəmin və cəmiyyətin müxtəlif sahələrində fəal iştirak arzusunun göstəricisidir.



# Əməkdaşlıqdan dostluğa

**Cari rüb əməkdaşlarımız üçün həm peşəkar, həm də mədəni baxımdan bir sıra tədbirlərlə yadda qaldı. Şirkət rəhbərliyi və əməkdaşları müxtəlif görüşlər, mədəni fəaliyyətlər və komanda ruhunu gücləndirən təşəbbüslərlə unudulmaz günlər yaşadılar.**

Sentyabrın 17-də şirkətin bir sıra rəhbər şəxsləri Sea Breeze-in yeni satış ofisinin açılış mərasiminə dəvət olundular. İki böyük və nüfuzlu şirkət arasında imzalanan memorandum çərçivəsində əməkdaşlıq və dostluq münasibətləri daha da möhkəmləndirildi, qarşılıqlı etimad və tərəfdaşlıq ruhu nümayiş etdirildi. Tədbirdə Sea Breeze Resort & Residences layihəsinin qurucusu və rəhbəri, tanınmış sənətçi Emin Ağalarov da iştirak etmişdir. Bu görüş hər iki tərəf üçün gələcək birgə layihələrin və qarşılıqlı dəstəyin təməlini qoydu.








Əməkdaşların birlikdə iştirak etdiyi növbəti tamaşa Akademik Milli Dram Teatrında nümayiş olunan “Manqurt” tamaşası oldu. Görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun “Gün var əsrə bərabər” romanı əsasında səhnələşdirilən tamaşanın quruluşçu rejissoru tanınmış sənətçi Anar Babalı idi. Tamaşada həm dərin fəlsəfi məzmun, həm də aktyorların emosional ifası tamaşaçılarda güclü təəssürat yaratdı.
Bu cür mədəni tədbirlər əməkdaşların mənəvi dünyasını zənginləşdirməklə yanaşı, milli və bəşəri dəyərlərin qorunması və təbliği baxımından da böyük əhəmiyyət daşıyır. “Atəşgah” ailəsi üçün bu tamaşa həm maarifləndirici, həm də ruhlandırıcı bir təcrübə oldu.





# Xoş anlar və dəyərlər ənənəsi

"Ateşgah" ailəsində ənənəyə çevrilən dəyərlərdən biri də səmimi və mehriban mühitdə keçirilən doğum günü tədbirləridir. Son aylarda Baş ofisdə bir neçə rəhbər şəxsin doğum günləri qeyd olunub. Bu tədbirlər həm şirkət daxilində pozitiv atmosferin güclənməsinə, həm də komanda ruhunun daha da möhkəmlənməsinə xidmət edir.

Avqustun 19-da "Ateşgah Həyat" Sığorta Şirkətinin İdarə Heyətinin sədri Azər Əliyev və Təsərrüfat şöbəsinin müdiri Fuad Fərəcovun, sentyabrın 26-da "Ateşgah" Sığorta Şirkətinin İdarə Heyətinin sədri Elçin Əhmədov və İnsan kapitalı və təşkilati inkişaf üzrə direktor Sevinc Məmmədovanın, sentyabrın 30-da isə Şəxsi sığorta növləri üzrə zərərlərin tənzimlənməsi departamentinin direktoru Nigar Əlizadənin doğum günləri qeyd olunub. Şirkət rəhbərliyinin iştirakı ilə keçirilən bu tədbirlərdə rəhbər şəxslərin şirkətin inkişafına verdikləri töhfələr yüksək qiymətləndirilib, onlara səmimi təbriklər və xoş arzular çatdırılıb. Görüşlər səmimi və korporativ ruhda keçərək, sonda xatirə fotoları ilə yekunlaşıb.









# “Atəşgah” ailəsində peşəkar uğurlar davam edir!


Chartered Insurance Institute

Record of Achievement

Gulnare Zeynalova

has passed unit

(W01) Award in General Insurance (English)

Unit achieved: September 2025

“Atəşgah” ailəsi daim əməkdaşlarının peşəkar inkişafına, bilik və bacarıqlarının beynəlxalq səviyyədə tanınmasına böyük önəm verir. Son günlərdə iki əməkdaşımızın qazandığı uğurlar da bu istiqamətdə atılan mühüm addımlardan biridir.
17 sentyabr tarixində Əmlak sığortası növləri üzrə anderraytinq və təkrarsığorta şöbəsinin  əməkdaşı Gülnarə Zeynalova The Chartered Insurance Institute (CII) imtahanının birinci mərhələsi  olan “Award in General Insurance” imtahanını müvəffəqiyyətlə keçib.


PATRON HIS MAJESTY THE KING

This is to certify that

Ulviya Abdiyeva

has been awarded the

CII Level 3 Certificate in Insurance

by The Chartered Insurance Institute

Sığorta sahəsində davamlı inkişafı ilə seçilən Strateji müştərilər və beynəlxalq brokerlərlə iş şöbəsinin müdiri Ülviyə Abdiyeva da The Chartered Insurance Institute (CII) tərəfindən keçirilən üç beynəlxalq imtahanı —W01 – Award in General Insurance, IF3 – Insurance Underwriting Process və IF4 – Insurance Claims Handling Process imtahanlarını uğurla başa vuraraq, nəticə etibarilə nüfuzlu “CII Level 3 Certificate in Insurance” sertifikatına layiq görülmüşdür.

“Atəşgah” Sığorta olaraq qürur duyuruq ki, komandamızda daim öz bilik və bacarıqlarını təkmilləşdirən, beynəlxalq arenada uğurla təmsil olunan və şirkətin inkişafına dəyərli töhfələr verən əməkdaşlar çalışır.

# Partnyorlarla möhkəm əməkdaşlıq körpüsü

Sentyabr ayının 28-i “Atəşgah” Sığorta Şirkəti Loyallıq proqramı çərçivəsində partnyorlar üçün Şamaxı rayonunda xüsusi tədbir təşkil etdi. Tədbirin əsas məqsədi şirkətlə əməkdaşlıq edən partnyorlarla münasibətlərin daha da möhkəmləndirilməsi və qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi olub.
Tədbir Şamaxının məşhur “Abqora” restoranında təşkil edilən nahar yeməyi ilə başlamışdır.
Partnyor satışların inkişafı departamentinin iştirakı ilə baş tutan tədbirin davamında qonaqlar Meysəri şərab zavoduna baş çəkiblər. Burada yerli mütəxəssislər tərəfindən zavodun fəaliyyəti, istehsal prosesi və məhsullar barədə ətraflı məlumat verilmişdir. Tədbirin sonunda isə qonaqlar üçün 3 fərqli növdə yerli şərabın dequstasiyası təşkil olundu.
Səmimi və dostyana mühitdə keçən görüş iştirakçılar tərəfindən məmnunluqla qarşılandı.
Şirkətimiz gələcəkdə də partnyorlarla birgə əməkdaşlığı gücləndirmək və birliyə əsaslanan uğurlu layihələrə imza atmaq niyyətindədir!









# Sahibsiz heyvanlara dəstək layihəsi

Heyvanların rifahı və onların qorunması cəmiyyətin mənəvi inkişafının əsas göstəricilərindən biridir. Hər bir fərdin üzərinə düşən məsuliyyət, ətrafında yaşayan canlılara qayğı və diqqətlə yanaşmaqdan başlayır. Bu yanaşmanı əsas prinsiplərindən biri kimi qəbul edən “Atəşgah” Sığorta Şirkəti Heyvanların Beynəlxalq Müdafiəsi Günü münasibətilə korporativ sosial məsuliyyət strategiyası çərçivəsində xeyriyyə aksiyası həyata keçirdi.

Marketinq və ictimaiyyətlə əlaqələr şöbəsinin təşəbbüsü ilə reallaşan bu sosial yönümlü aksiyanın əsas məqsədi sahibsiz heyvanlara diqqət və qayğının artırılması, onların rifahına dəstək göstərilməsi olmuşdur. Aksiya çərçivəsində şirkət əməkdaşları Abşeron rayonu, Pirəkəşkül kəndində yerləşən “Bars” sahibsiz heyvanlar sığınacağına və pişik sığınacağına baş çəkiblər. Ziyarət zamanı sığınacaqlarda olan heyvanlar müxtəlif növ qida məhsulları ilə təmin edilib və onların gündəlik ehtiyaclarına dəstək göstərilib.

Bundan əlavə, sahibsiz küçə heyvanları üçün xüsusi olaraq hazırlanmış evciklər də istifadəyə verilib. Həmin evciklər şirkətin Bakı şəhərində yerləşən ofislərinin qarşısında quraşdırılaraq, küçə heyvanları üçün müvəqqəti sığınacaq olub.

“Atəşgah” Sığorta Şirkəti uzun illərdir ki, sosial məsuliyyət layihələrinə böyük önəm verir və cəmiyyətə fayda vermək məqsədilə bu kimi təşəbbüsləri davamlı şəkildə həyata keçirir. Şirkətimizin bu addımı bir daha sübut edir ki, heyvanlara qayğı göstərmək və onların rifahına töhfə vermək həm sosial məsuliyyətin, həm də insanlığın göstəricisidir!








# Bir-birimizi tanıyaq

## Sevinc Məmmədova ilə müsahibə

*İnsan kapitalı və təşkilati inkişaf üzrə direktor*

1

**Sevinc xanım, gəlin söhbətə sizi daha yaxından tanımaqla başlayaq. Bu günə qədərki yolunuz haqqında nə deyə bilərsiniz?**
Mən Bakı şəhərində anadan olmuşam və ali təhsilimi də burada başa vurmuşam. Təhsilimi tamamladıqdan sonra Xarici İşlər Nazirliyində çalışmağa başladım. Daha sonra Yaponiya hökumətinin təqaüd proqramını qazanaraq, əlavə təhsil almaq üçün Yaponiyaya yollandım. Orada doktorantura təhsili aldım və bu prosesin sonunda Yaponiyada qalaraq əmək fəaliyyətimi davam etdirdim. Ümumilikdə, 15 ilə yaxın Yaponiyada yaşamışam. Ardınca Bakıya qayıtdım, bir müddət burada işlədikdən sonra Moskvada fəaliyyət göstərməyə başladım və beş il orada çalışdım. 2023-cü ildən etibarən isə “Atəşgah” da çalışıram.

2

**Sizcə yaxşı lider doğulur, yoxsa yetişdirilir? Öz liderlik yolunuzu necə xarakterizə edərdiniz**
Fikrimcə, liderlik sonradan inkişaf etdirilə bilən bir bacarıqdır. Təbii istedad əhəmiyyətli rol oynasa da, zamanla qazanılan təcrübə, bilik və yanaşmalar liderlik qabiliyyətinin formalaşmasında mühüm yer tutur. Liderlik təkcə qərar qəbul etmək və strategiya müəyyənləşdirməkdən ibarət deyil. Eyni zamanda bu, məlumatı düzgün təhlil etmək, insanlarla effektiv ünsiyyət qurmaq və sağlam münasibətlər yaratmaq bacarığıdır. Mənim şəxsi yoluma gəlincə isə  fərqli sahələrdə və fərqli mədəniyyətlərdən olan insanlarla uzun illər ərzində qurduğum ünsiyyət təcrübəsi liderlik keyfiyyətlərimin formalaşmasına əhəmiyyətli töhfə verib.

3

**Rəhbərlik etdiyiniz dövrdə insan resursları sahəsində hansı yeniliklərə imza atmısınız və ya atmaq istərdiniz?**
Rəhbərlik etdiyim dövrdə İnsan resursları sahəsində bir sıra yeniliklərin tətbiqinə nail olmuşuq və bu istiqamətdə işlərimiz davam edir. Əsas diqqətimizi müsbət və dayanıqlı iş mühitinin yaradılmasına yönəltmişik.
Bu çərçivədə iş mühitinin yenilənməsi, əməyin mühafizəsi və təhlükəsizlik tədbirlərinin təkmilləşdirilməsi, korporativ mədəniyyətin gücləndirilməsi, peşəkar inkişaf imkanlarının genişləndirilməsi və iş-həyat balansının qorunması kimi prioritet sahələrdə irəliləyişlərə nail olmuşuq. Əməkdaşlarımızın davamlı inkişafı üçün mütəmadi olaraq təlimlər və kurslar təşkil olunur. Bu prosesə şirkətin müxtəlif departament və şöbələrindən olan əməkdaşlar cəlb edilir. İnsan resursları komandası olaraq, həmçinin hibrid iş modelini tətbiq etmişik. Hazırda əməkdaşlarımızın təxminən 20%-i bu rejimdə çalışır. Bu, həm iş səmərəliliyinin artırılması, həm də əməkdaş məmnuniyyətinin yüksəldilməsi baxımından əhəmiyyətli bir addım olub.Bundan əlavə, peşəkar inkişaf proqramlarının hazırlanması və həyata keçirilməsi istiqamətində də ciddi işlər görülüb. Əlbəttə ki, qarşıda həyata keçirməyi planlaşdırdığımız çoxsaylı ideya və təşəbbüslər var. Biz daim dəyişən əmək bazarına və əməkdaşlarımızın ehtiyaclarına uyğun şəkildə inkişaf etməyə və yeniliklər tətbiq etməyə çalışırıq.



4

**Sizin üçün "ideal işçi" anlayışı nə deməkdir?**
Zaman keçdikcə bir həqiqəti daha aydın dərk etmişəm: bu həyatda heç nə tam mükəmməl deyil. Bu baxımdan “ideal işçi” anlayışını da qəbul etmirəm. Hər bir insanın güclü və zəif tərəfləri var və biz onları olduğu kimi qəbul edib, potensiallarını maksimum dərəcədə üzə çıxarmağa çalışmalıyıq.
Düşünürəm ki, vacib olan  insanın öz üzərində daim işləməsi, daim öyrənməyə meyilli olması və işinə məsuliyyətlə yanaşmasıdır. İdeala çatmaq mümkün olmasa da, ona yaxınlaşmaq üçün göstərilən səy, əslində insanın ən dəyərli keyfiyyətlərindən biridir.

5 **Əməkdaşlar arasında daha güclü əlaqə qurmaq üçün hansı alət və ya metodlardan istifadə edirsiniz?**

Əməkdaşlar arasında daha güclü və sağlam münasibətlər qurmaq üçün ilk növbədə müntəzəm ünsiyyətin təmin edilməsi, açıq və səmimi əks əlaqə mədəniyyətinin formalaşdırılması, korporativ tədbirlərin təşkili və etimada əsaslanan iş mühitinin yaradılması vacibdir. Bu kimi alətlər yalnız peşəkar münasibətləri deyil, eyni zamanda insanları bir-birinə yaxınlaşdıran sosial bağları da gücləndirir.Təəssüf ki, cəmiyyətimizdə bəzən qarşılıqlı inamın azlığı və paxıllıq kimi mənfi xüsusiyyətlər müşahidə olunur. Bu cür hisslərə əmək mühitində də rast gəlindikdə, peşəkar münasibətlərə zərər dəyir , kollektiv ruhu zəifləyir və nəticə etibarilə ümumi iş məhsuldarlığı aşağı düşür. Paxıllıq adətən, başqasının uğuruna qarşı mənfi reaksiya doğurur və nəticədə insan özünü başqaları ilə müqayisə edərək cəmiyyətdən təcrid olunmağa meyillənir. Bu isə həm şəxsi özgüvəni, həm də ümumi komanda dinamikasını zəiflədir. Buna görə də biz çalışırıq ki, komanda daxilində açıq ünsiyyət və şəffaflıq prinsiplərini təşviq edək, fərqlilikləri anlayışla qəbul edən, əməkdaşların uğurlarını birlikdə qeyd edən və bir-birini dəstəkləyən bir mühit yaradaq. Çünki sağlam korporativ mədəniyyətin təməli qarşılıqlı etimad, anlayış və həmrəylikdir.

6 **Uğurlu bir iş mədəniyyəti yaratmaq üçün insan kapitalının hansı xüsusiyyətləri ön planda olmalıdır?**

Bunun üçün insan kapitalının bir neçə mühüm xüsusiyyəti ön planda olmalıdır. İlk növbədə, davamlı inkişaf və özünütəkmilləşdirməyə yönəlik yanaşma vacibdir. Əməkdaşlar daim bilik və bacarıqlarını yeniləməyə, dəyişən tələblərə uyğunlaşmağa və şəxsi inkişaflarına vaxt ayırmağa hazır olmalıdırlar. Eyni zamanda, sağlam komanda ruhunun yaradılması və inkişaf etdirilməsi də böyük əhəmiyyət kəsb edir. Qarşılıqlı dəstək, inam və əməkdaşlıq prinsipləri üzərində qurulmuş iş mühiti əməkdaşların motivasiyasını artırır, şirkət daxilində güclü tərəfdaşlıq münasibətlərinin formalaşmasına şərait yaradır.Düşünürəm ki, məhz bu iki amil — davamlı öyrənmə və güclü komanda mədəniyyəti uğurlu iş mühitinin əsasını təşkil edir.

7 **Sizi işdə ən çox motivasiya edən və gününüzə rəng qatan an nədir?**

Məni işdə ruhlandıran ən əsas məqam əməkdaşlarımızın uğurları və inkişaf yolunda atdıqları addımlardır. Onların peşəkar şəkildə böyüməsinin, yeni bacarıqlar əldə etməsinin və öz potensiallarını reallaşdırmasının şahidi olmaq mənim üçün böyük ilham mənbəyidir. Bu, mənə yalnız rəhbər kimi deyil, insan olaraq da dərin məmnunluq və enerji verir.Hər gün iş günümün bir hissəsini əməkdaşlarla birbaşa ünsiyyətə ayırıram. Mərtəbələri gəzib onlarla söhbət etmək, gülərüz və səmimi münasibətlə qarşılanmaq mənə pozitiv enerji verir. Bu cür gündəlik əlaqə sadəcə iş prosesinə deyil, ümumi komanda ruhuna da çox müsbət təsir göstərir.

8 **Əgər HR sahəsində olmasaydınız, hansı sahədə özünüzü görərdiniz?**

Əvvəlcə onu qeyd etmək istərdim ki, mən İnsan resursları sahəsinə kifayət qədər yetkin yaşda gəlmişəm. Bu sahəyə qədərki karyeram müxtəlif istiqamətləri əhatə edib. Uzun illər dövlət qurumlarında, o cümlədən Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində və Rusiyada ölkəmizin Ticarət Nümayəndəliyində çalışmışam. Həmçinin Azərbaycanda və Yaponiyada müxtəlif layihələrdə və tədris sahəsində də geniş təcrübə qazanmışam.Əgər bu gün HR sahəsində olmasaydım, yəqin ki, diplomatik fəaliyyətimi davam etdirmək istərdim. Bu sahədəki keçmiş təcrübəm və beynəlxalq mühitdə qazandığım biliklər məni bu istiqamətə bir qədər də yaxınlaşdırır. Eyni zamanda, hüquq sahəsi də mənim üçün hər zaman maraqlı olub. Bəzən düşünürəm ki, hüquq fakültəsində təhsil alsaydım, yaxşı bir vəkil və ya müstəntiq ola bilərdim. Çünki araşdırma aparmaq, məntiqli təhlillər yürütmək və faktlara əsasən qərar vermək mənə yaxın olan bacarıqlardır.

9 **Bu gün İnsan resurslarının əsas məqsədi nədir: uyğun insanı tapmaq, yoxsa içimizdəki potensialı kəşf edib inkişaf etdirmək?**

Düşünürəm ki, bu suala tək tərəfli cavab vermək çətindir, çünki İnsan resurslarının əsas məqsədi həm uyğun insanı tapmaq, həm də mövcud potensialı kəşf edərək inkişaf etdirməkdən ibarətdir. Bu prosesin hər iki mərhələsi bir-birini tamamlayır və birini digərindən ayırmaq mümkün deyil.Əlbəttə, doğru namizədi seçmək çox vacibdir, lakin bu heç də asan proses deyil. Əsl istedadı tapmaq zaman və diqqət tələb edir. Lakin istedadı tapmaqla iş bitmir – onu inkişaf etdirmək, mühitə düzgün inteqrasiya etdirmək və peşəkar inkişafını dəstəkləmək də HR funksiyasının ayrılmaz hissəsidir.

10 **Əgər komanda ruhunu bir rənglə ifadə etsəydiniz, hansı rəngi seçərdiniz və niyə?**

Sözsüz ki, qırmızı və narıncı rənglər!

**11** **Şirkət daxilində görünməyən, amma möcüzələr yaradan insanları necə fərq edirsiniz?**

Şirkət daxilində görünməyən, amma işin inkişafına və uğuruna mühüm töhfə verən insanları fərq etmək üçün davamlı və diqqətli müşahidə çox vacibdir. Mən daim əməkdaşlarla birbaşa əlaqə saxlayıram, onların fikirlərini dinləyir, suallar verir və gündəlik iş proseslərini yaxından izləyirəm. Bu, mənə onların potensialını və işə yanaşmalarını daha yaxşı dərk etməyə imkan verir. Eyni zamanda, əməkdaşların rəhbərlərindən də mütəmadi olaraq onların performansı və nailiyyətləri barədə soruşuram. Bu yanaşma sayəsində işçilərin fərdi keyfiyyətlərini, gizli bacarıqlarını və təşkilata qatdıqları dəyəri kəşf etmək mümkündür..

**12** **Uğurlu karyera üçün insana nələr daha çox lazımdır: şans, zəhmət, yoxsa doğru zaman-doğru yer ?**

Fikrimcə, uğurlu karyeranın əsas təməli zəhmətdir. Əgər insan zəhmətkeş deyilsə, qarşısına çıxan şanslar və doğru zaman, doğru yer faktorları belə ona real uğur qazandıra bilməz. Çünki şans ancaq hazır olan insan üçün bir fürsətə çevrilə bilər.Təbii ki, həyatın müəyyən məqamlarında şans və zamanlamanın da rolu olur. Bəzən doğru anda doğru yerdə olmaq çox şeyi dəyişə bilər. Lakin bu fürsətlərin dəyərləndirilməsi, davamlı uğura çevrilməsi yalnız zəhmətlə mümkündür

**13** **Bugünkü Sevinc Məmmədova 10 il əvvəlki "özünə" bir cümləlik məsləhət versəydi, nə deyərdi?**

Xırda və önəmsiz məsələlərə görə əsəbdən uzaq olmağı və stressə qapılmamağı məsləht görərdim. O vaxtlar yaşadığım çətinliklərin çoxunu indi daha sakit və soyuqqanlı qarşılayardım.

**14** **İş müsahibəsində bir namizəddən ən son sizi təəccübləndirən cavab nə olub?**

Bir iş müsahibəsində məni ən çox təəccübləndirən cavablardan biri namizədin yeni biliklər öyrənməyə maraq göstərmədiyini ifadə etməsi oldu. Ümumiyyətlə, insan müsahibədə özünü ən yaxşı tərəfdən göstərməyə çalışır, amma bu cavan namizəd açıq şəkildə bildirdi ki, o, yeni nə isə öyrənməkdə maraqlı deyil. Bu, mənim üçün olduqca qəribə və gözlənilməz idi, xüsusən də indiki dövrdə sürətlə dəyişən dünyada, hər gün yeni biliklərə ehtiyacın olduğu zaman.Düşünürəm ki, davamlı öyrənmək istəyi və özünü inkişaf etdirmək insanın peşəkar və şəxsi inkişafının vacib tərkib hissəsidir. Bu cür yanaşma olmadan isə uzunmüddətli uğura nail olmaq çətin olar.

**15** **İşə gecikən əməkdaşın ən kreativ bəhanəsi nə olub və siz buna inandınızmı?**

Təəssüf ki, işə gecikmə ilə bağlı yaradıcı bəhanələr çox nadir hallarda rast gəlinir. Adətən, əməkdaşlar eyni, çox da təəccüblü olmayan səbəbləri - məsələn, tıxac və ya nəqliyyat problemlərini qeyd edirlər.Şəxsən mən inanmağı üstün tuturam və çalışıram ki, əməkdaşlar dürüst olsunlar. Əlbəttə, gələcəkdə bəlkə daha kreativ və maraqlı bəhanələr eşidərik, amma hazırda bu, nadir hallarda baş verir.

**16** **Sizcə texnologiyanın artması insan kapitalını kölgədə qoyurmu, yoxsa gücləndirirmi?**

Məncə, texnologiyanın inkişafı həm imkanlar yaradır, həm də müəyyən risklər daşıyır. Bugünkü dövrdə texnologiya çox sayda prosesi asanlaşdırır, işi sürətləndirir və məhsuldarlığı artırır. Lakin eyni zamanda, insanları texnologiyaya qarşı müəyyən asılı vəziyyətə gətirə bilər və bu, heç də güc əlaməti deyil. Buna baxmayaraq, insan kapitalının əhəmiyyəti heç vaxt azalmayacaq. Texnologiya nə qədər inkişaf etsə də, yaradıcı düşüncə, qərarvermə, empati və insanlarla ünsiyyət kimi bacarıqların yerini tutmaq mümkün deyil. İnsan kapitalı həmişə hər hansı texnoloji alətlərin üzərində dayanır və onları səmərəli şəkildə istifadə etməyi təmin edir.

# Maraqlı faktlar rubrikası

Bu il paytaxtımız Bakıda baş tutan Formula 1 yarışı həm yerli, həm də beynəlxalq azarkeşlər üçün böyük həyəcan yaratdı. Dünyanın ən sürətli yarış avtomobillərinin şəhərimizin küçələrində mübarizəsi, sözün əsl mənasında möhtəşəm bir hadisə idi.
Biz də düşündük ki, bu fürsətdən yararlanıb sizlər üçün F1 avtomobilləri və bu unikal idman növü haqqında maraqlı faktları toplayaq.

## *Formula 1 yarışının tarixi*

Formula 1 yarışlarının əsası 1950-ci ildə qoyulub. İlk rəsmi dünya çempionatı həmin il Böyük Britaniyada keçirilmişdi. Bu yarış İkinci Dünya müharibəsindən sonra avtomobil idmanını yenidən canlandırmaq məqsədilə yaradılmışdı.








## *Sürət rekordu*

Formula 1 ən möhtəşəm motor idman növü olub, tək oturacaqlı, açıq təkərli idman avtomobilləri üçün beynəlxalq yarışdır. Bolidlər adlanan bu avtomobillər 300 km/saatdan çox sürət yığmağa qadirdir.

## *Pilotlar – təkcə sürücü deyil, idmançıdır*

Yarış zamanı pilotlar 5–6 G qüvvəsinə məruz qalırlar, bu isə astronavtların kosmosa qalxarkən hiss etdikləri təzyiqə bərabərdir. Güclü boyun və bədən əzələləri olmasa, bolidi idarə etmək mümkün deyil.






## *Pit-stop – saniyələrin oyunu*

Komandalar təkərləri orta hesabla 2 saniyədən az vaxtda dəyişirlər. 2019-cu ildə isə Red Bull Racing cəmi 1,82 saniyəyə təkər dəyişərək Formula 1 üzrə dünya rekordu qazanmış ən uğurlu komandadır.

# Dünyanın ən bahalı idman növü

Bir F1 bolidinin dəyəri təxminən 15 milyon dollar olsa da, bir komandanın illik xərcləri 400 milyon dollara qədər yüksəlir. Təkcə logistikaya milyonlarla dollar sərf olunur.



# Texnologiya laboratoriyası

F1-də işlənilən texnologiyalar sonradan adi avtomobillərdə də istifadə olunur. Karbon əyləclər, aerodinamik dizaynlar və hibrid mühərriklər əvvəlcə məhz F1 üçün yaradılmışdı.



# Ən çox çempion olan pilotlar

Lewis Hamilton və Michael Schumacher hər biri yeddi dəfə dünya çempionu olaraq, Formula 1 tarixinin ən uğurlu sürücülərindən sayılırlar.



# “Atəşgah” Sığorta Qrupunun Himni

Biz, inama doğru,
Nurlu sabaha yol gedirik.
Və işığa doğru,
Xoş gələcəyə biz baxırıq.
Səadəti, məhəbbəti… səninlə bölüşdük!

Nəqarət:
Ürəyimiz bir atəş,
Birgə döyünür ürəyinlə
Qəlbimiz bir səs,
Birgə oxuyur qəlbinlə
Nəbzimiz, könlümüz, arzularımız səninlə
Gülümsə həmişə, Arxayın yaşa!

Biz, inama doğru
Nurlu sabaha yol gedirik
Və işığa doğru
Xoş gələcəyə biz baxırıq
Səadəti, məhəbbəti… səninlə bölüşdük!

Nəqarət:
Ürəyimiz bir atəş,
Birgə döyünür ürəyinlə
Qəlbimiz bir səs,
Birgə oxuyur qəlbinlə
Nəbzimiz, könlümüz, arzularımız səninlə
Gülümsə həmişə,
Arxayın yaşa!